# Aşkar edilən kütləvi məzarlıqlar erməni vəhşiliyinin təzahürüdür

**Ermənistanın təxribatı nəticəsində 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən və Azərbaycanın Zəfəri ilə bitən İkinci Qarabağ müharibəsindən sonra işğalçıların xalqımıza vurduğu zərbələrin nə qədər ağır olduğunu daha aydın gördük.**





Otuz ilə yaxın davam etmiş əsarətdən qurtulan Qarabağı və Şərqi Zəngəzuru təcavüzkar ermənilər xarabalığa çevirmişdilər. O zaman qəddar, məkrli ermənilərin silahlı hücumlarından, zülmlərindən baş götürüb qaçan azərbaycanlıların çoxu öz doğma evlərinin açarlarını gətirmişdilər. Yurdlarını işğalçıların yağmaladıqlarını, evlərini uçurub dağıtdıqlarını, yandırdıqlarını bilsələr də, o paslanmış açarları atmağa ürəkləri gəlmədi. Arzularını dövlətlərinin güclü ordusu gerçəkləşdirdi, dədə-baba yurdlarını işğalçılardan azad etdi. O paslı açarların açacağı qapılar isə qalmamışdı. Müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərimizdə hazırda geniş-miqyaslı tikinti, bərpa işləri aparılır. Və indi Azərbaycan dövləti öz vətəndaşlarına o yerlərdə yeni inşa etdiyi evlərin açarlarını verir.

Uzun illər çəkdiyimiz həsrətdən, nisgildən sonra addım-addım dolaşmağa başladığımız o yerlərdə həyata keçirilən tikinti, qazıntı-axtarış işləri nəticəsində fərdi və kütləvi məzarlıqlar üzə çıxır. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində indiyədək Ağdam rayonunun Sarıcalı, Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndlərində, Kəlbəcərdə, Ağdamda və digər yaşayış məntəqələrində kütləvi məzarlıqlar aşkarlanıb.

Ermənistan tərəfindən işğal dövründə Şuşa həbsxanası ərazisində azərbaycanlı əsir və girovların saxlanılması, onlara işgəncələrin verilməsi, qeyri-insani rəftara məruz qalmaları müxtəlif şahid ifadələri ilə təsdiq olunmuş faktlardır. Kütləvi məzarlıqların biri bu ilin iyununda Şuşa həbsxanasının ərazisində üzə çıxdı. Dörd insan cəsədinin qalıqlarının aşkarlandığı məzarlığın yaxınlığında təhqiqat işləri aparılıb. Həmin ərazidə daha çox insan qalıqlarının dəfn olunduğu müəyyən edilib. Avqustun 1-dən 15-dək aparılan qazıntı işləri nəticəsində Şuşa şəhərində, Şuşa həbsxanası ərazisində aşkarlanan kütləvi məzarlıqda 17 şəxsə aid olduğu ehtimal edilən insan qalıqları üzə çıxıb. Onlardan 11-i bütöv, 6-sı isə skeletin hissələri şəklindədir.

Aşkar olunan kütləvi məzarlıqla bağlı faktlar dəhşətlidir. İnsan qalıqlarının hər birinin üzərində ermənilərin onlara vermiş olduqları işgəncələrin, əzabların nişanələri var. 6 nəfərin skeletinin qalıqlarının qarın nahiyəsində mismarlar aşkarlanıb. Eyni zamanda qalıqlara keçirilən ilkin baxış zamanı həmin şəxslərin bədənləri üzərində güllələnmə izlərinin olduğu, müxtəlif küt zərbələr endirildiyi, kəsici-deşici alətlərdən istifadə edildiyi məlum olub. Onların başlarının da bədənlərindən ayrı dəfn edildiyi aşkarlanıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əməkdaşı Zaur İsmayılov jurnalistlərə açıqlamasında bildirib ki, insan qalıqlarının aşkarlandığı yer Şuşa həbsxanasının ərazisində çirkab sularının yığılması üçün istifadə edilən quyu olub: "İşgəncələr nəticəsində vəfat edən əsir və girovlarımız xaotik və nalayiq vəziyyətdə həmin quyuya atılıb. Skeletlərin vizual müayinəsindən görmək olur ki, onlar üzüaşağı, başıaşağı, bükülmüş və qıc olmuş müxtəlif formalarda quyuya atılıb. Hətta aşkarlanan altı nəfərə aid skeleti qalıqlarının qarın nahiyəsində nal mismarları tapılıb. Çoxlarında kəsici-deşici alətlərlə zərbə yerləri mövcuddur və işgəncə yerləri açıq-aydın görünür".

Zaur İsmayılov diqqətə çatdırıb ki, Şuşa həbsxanasının ərazisində ümumilikdə yay ərzində 34 nəfərə aid skelet qalıqları tapılıb. Aşkarlanan insan qalıqlarının üzərindəki işgəncə izləri Ermənistan tərəfinin beynəlxalq hüquq normalarına və konvensiyaların tələblərinə zidd hərəkət etdiyini, heç bir tələbə məhəl qoymayaraq, insan hüquqlarını heçə saydıqlarını bir daha təsdiq edir.

Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi hələ də qaranlıqdır. Minlərlə azərbaycanlı hələ də Qarabağda, Şərqi Zəngəzurda itkin düşmüş, qəddar ermənilər tərəfindən əsir və ya girov götürülmüş doğmalarının başlarına nələrin gətirildiyini, sonlarının necə olduğunu, harada dəfn olunduqlarını öyrənmək istəyir. Ermənistan tərəfi isə kütləvi dəfn yerləri barədə məlumatları təqdim etməkdən boyun qaçırır. Azərbaycanın aidiyyəti qurumları tərəfindən növbəti kütləvi dəfn yerlərinin müəyyən olunması, müvafiq ekspertizaların aparılması istiqamətində hazırda işlər davam etdirilir.

Aşkarlanan məzarlıqlar fitnəkar, qəddar ermənilərin Azərbaycan xalqının sinəsinə necə çalın-çarpaz dağlar çəkdiyini göstərir. Bu faktlar siyasətini azərbaycanlılara qarşı nifrət üzərində quran Ermənistanın azərbaycanlı əsir və girovlara qarşı amansızlığını, vəhşiliyini bir daha sübut edir.

Təəssüf ki, Ermənistan qanunlarını pozduğu, saya salmadığı beynəlxalq təşkilatlar tərəfindən cəzalandırılmır. Uzun illər davam edən cəzasızlıq mühiti, beynəlxalq səviyyədə təzyiqlərin olmaması bu təcavüzkar, işğalçı dövləti arxayınlaşdırır. Odur ki, Ermənistan qanunsuz əməllərini rahatlıqla davam etdirir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 17 avqust.- S.5.